# Azərbaycan Sahibkarlar Konfederasiyası COP29-da bir sıra görüşlər keçirib

**COP29 çərçivəsində "mavi zona"da Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Beynəlxalq İşəgötürənlər Təşkilatı birgə təmsil olunurlar.**




Pavilyon aktiv fəaliyyət göstərir və "yaşıl iqtisadiyyat"a keçid, bu zaman iş yerlərinin ədalətli şəkildə bölüşdürülməsi, "yaşıl bacarıqlar"ın inkişaf etdirilməsi, bu transformasiyada işəgötürənlərin məsuliyyəti mövzularında panel müzakirələr keçirilir, aktiv görüşlər təşkil edilir.

Noyabrın 19-da COP29 pavilyonunda Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev Bəhreyn Palatasının İdarə Heyətinin üzvü, Beynəlxalq İşəgötürənlər Təşkilatının vitse-prezidenti xanım Sonya Canahi, Beynəlxalq İşəgötürənlər Təşkilatının Maraqlı Tərəflərin Əlaqələndirilməsi üzrə müdiri Stefani Vinet ilə görüş keçirib.

Konfederasiya prezidenti Məmməd Musayev bildirib ki, Azərbaycan regionun ən inkişaf etmiş ölkəsidir və qeyri-neft sektorunun inkişafı istiqamətində bir neçə xüsusi proqramlar icra edir. Azərbaycanın özünəməxsus iqlimə malik olduğunu vurğulayan M.Musayev bioloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı üzrə imkan və potensiallar haqqında geniş məlumat verib. Ölkəmizin təmiz və halal kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı böyük perspektivlərinin olduğunu vurğulayıb.

Xanım Sonya Canahi Bəhreyn Palatasının 85 illik tarixi və 40 min üzvü olduğunu qeyd edib. O, Bəhreyn üçün əsas məsələ kimi qida təhlükəsizliyinin və logistika problemlərinin həllini önə çəkib. Xanım Sonya ölkəsinin Azərbaycan ilə iqtisadi əməkdaşlığa hazır olduğunu deyib.

Sonra Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndə heyəti Beynəlxalq Əmək Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə regional direktorluğu ilə görüşüb. Xanım Beate Andrees regional direktorluğun fəaliyyəti, işəgötürən təşkilatlarla əməkdaşlıq perspektivləri haqqında fikirlərini bölüşüb.

Konfederasiya prezidenti Məmməd Musayev Şərqdə işəgötürənlərlə işçilər arasında ilk kollektiv müqavilənin 120 il əvvəl məhz Azərbaycanda imzalandığını vurğulayaraq, konfederasiyanın Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə əməkdaşlığının uğurla davam etdiyini bildirib.

Daha sonra konfederasiyanın nümayəndə heyəti COP29 çərçivəsində "mavi zona"da fəaliyyət göstərən Azərbaycan pavilyonunda İqlimə Davamlı Kənd Təsərrüfatı Təcrübələrinin Təkmilləşdirilməsi üzrə yüksək səviyyəli nazirlərin görüşündə iştirak ediblər.

"Qida, Kənd Təsərrüfatı və Su Günü"ndə keçirilən panel müzakirənin moderatorluğunu BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa və Mərkəzi Asiya üzrə Regional nümayəndəsi Viorel Gutu edib.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun çıxış etdiyi paneldə maraqlı təcrübələr ətrafında müzakirələr aparılıb.

COP29 çərçivəsində "Mavi zona"da ASK-nın fəaliyyəti davam edir.

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.19.